# Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə Koqalımda abidə ucaldılacaq

**Rusiyanın Koqalım şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfinə ucaldılacaq abidənin yerinə üzərinə yazılı lövhə vurulmuş rəmzi daş qoyulub.**

AZƏRTAC xəbər verir ki, Koqalım şəhərinin başçısı Nikolay Palçikov özünün "Teleqram" kanalında bu barədə paylaşım edib.

O qeyd edib ki, abidə Heydər Əliyevin 100 illik yubileyi şərəfinə ucaldılacaq.

"Xəzəryanı Azərbaycan Respublikasından olan şəxslər neft-qaz sahəsinin (Red. - RF Xantı-Mansi Muxtar Dairəsinin) inkişafına əhəmiyyətli töhfə veriblər. Bu görkəmli insanlara hörmət əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyi şərəfinə ucaldılacaq abidənin yerinə bu gün rəmzi daş qoyulub", - deyə Nikolay Palçikov yazıb.






Azərbaycan.- 2023.- 21 aprel.- S.8.